

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 87 (24.224)

17 may 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev İordaniya parlamentinin Nümayəndələr Palatasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Əhməd Əs-Səfadini qəbul edib.

Prezident İlham Əliyev Əhməd Əs-Səfadinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmiz ən ağır dövrlərdə öz müstəqilliyini qoruyub saxlaya bildi və inkişaf yoluna qədəm qoydu.

İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycanla İordaniyanın dost və qardaş ölkələr olduğunu və əlaqələrimizin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirdi.

Əməkdaşlığımızın genişlənməsində qarşılıqlı səfərlərin önəmini qeyd edən Azərbaycan Prezidenti Əhməd Əs-Səfadinin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə və münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

Dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu bildirən Əhməd Əs-Səfadi İordaniya Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycanla İordaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin əsasının qoyulmasında dünya səviyyəli şəxsiyyətlər Heydər Əliyevin və İordaniya Kralı Hüseyn bin Talalın xüsusi rolları olub.

Əhməd Əs-Səfadi qeyd etdi ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz böyük uğurlara və nailiyyətlərlə imza atıb. O vurğuladı ki, Azərbaycan Avropanın ən qabaqcıl ölkələri ilə müqayisə oluna biləcək dərəcədə inkişaf yolundadır.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.

Sonda Əhməd Əs-Səfadi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin ilk 4 ayının yekunları müzakirə edilib





Mayın 15-də Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin ilk 4 ayının yekunları ilə bağlı müşavirə keçirilib. Müşavirədə aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri iştirak ediblər.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin gördüyü işlər və sosial-iqtisadi göstəricilərə dair hesabat verib. Hesabat məruzəsində büdcə proqnozlaşdırılması, büdcəyə vergi daxilolmaları, sahibkarlara verilən güzəştli kreditlər, "yaşıl enerji" layihələri çərçivəsində görülən işlər, dövlət orqanlarında innovativ texnologiyaların tətbiqinə diqqət yetirilib. Həmçinin suvarma suyu təminatı sahəsindəki mövcud vəziyyət və problemlər, kənd təsərrüfatı, vətəndaş qəbulu və müraciətləri sahəsindəki vəziyyət və digər bir sıra mövzular geniş müzakirə olunub. Bununla bağlı aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin çıxışları olub.

Sonra nöqsanlar və qarşıda duran vəzifələrdən danışılıb, qarşıdakı hədəflərlə bağlı aidiyyəti üzrə tapşırıqlar verilib.

**"Şərq qapısı"**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib





Mayın 16-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan olunub. Ümummilli Liderin 100 illiyi ölkəmizdə və onun ayrılmaz bir parçası olan Naxçıvanda geniş qeyd olunur, Onun əziz xatirəsi ehtiramla yad edilir. Ulu Öndər Naxçıvana rəhbərlik etdiyi 1991-1993-cü illərdə Azərbaycanın milli dövlətçiliyinin bərpasının, müstəqil dövlət kimi formalaşmasının əsasını qoyub. Bu istiqamətdə çox mühüm və tarixi qərarlar qəbul edilib. Bu gün Ümummilli Liderimizin əsasını qoyduğu siyasi, iqtisadi inkişaf strategiyası ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Sonra Azərbaycan dövlətinin və xalqının xilaskarı, Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrasının təsdiq edilməsi

2. "Toxumçuluq haqqında" və "İnsan

*Ardı 2-ci səhifədə*

orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası qanunlarının ləğv edilməsi

3. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilməsi

4. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavininin seçilməsi

5. Cari məsələ

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov çıxış edib, "Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul olunub. Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrası gəlirlər üzrə 197968088 manat, xərclər üzrə isə 605869766 manat məbləğində olmaqla təsdiq edilib.

Gündəlikdə duran ikinci məsələ – "Toxumçuluq haqqında" və "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası qanunlarının ləğv edilməsi ilə bağlı bildirilib ki, 2017-ci ildə zəruri əsaslandırma olmadan qəbul edilən bu qanunların ötən müddətdə tətbiqinə də ehtiyac olmayıb. Çünki nəzərdə tutulan münasibətlər Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

Müzakirə olunan məsələ ilə əlaqədar qanun layihələri oxunub, "Toxumçuluq haqqında" və "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası qanunları ləğv edilib.

Sessiyanın gündəliyində duran üçüncü məsələnin müzakirəsi zamanı qeyd olunub ki, dəyişikliyin əsas məqsədi deputatlara verilən vergilərdən azad olunmuş pul təminatının ləğv edilməsidir. Azərbaycan Respublikasının müvafiq qanununda da dəyişikliklər edilərək bu pul təminatı ləğv olunub.

Müzakirə olunan məsələ ilə bağlı "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası qanunu qəbul edilib.

Sessiyada gündəlikdə duran dördüncü məsələnin müzakirəsi zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 26-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavinləri Ali Məclisin deputatları sırasından səsvermə yolu ilə seçilir. Buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini vəzifəsinə 16 saylı Qıvraq Seçki Dairəsindən seçilmiş deputat İbrahimov Anar Adil oğlunun namizədliyi irəli sürülüb.

Deputatlardan Ehtibar İsmayılov, Nüsrət Həsənov, Hüseyn Niftəliyev, Yeganə Məmmədova, Elman Cəfərli, Aidə Cəlilzadə və Ehtimad Məmmədov Anar İbrahimovun fəaliyyətini yüksək qiymətləndirdiklərini və təklifi dəstəklədiklərini bildiriblər.

Səsvermə keçirilib və Anar İbrahimov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Anar İbrahimov deputat həmkarlarına onun namizədliyini irəli sürüb, dəstəklədikləri üçün təşəkkür edərək deyib: "Mənim üçün böyük şərəfdir ki, 2004-cü ildən təmsil olunduğum bu yüksək məclisin idarə edilməsində iştirak etməyimə imkan yaradılıb. Yüksək etimada görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə xüsusi minnətdarlıq edirəm. Çünki mən və burada təmsil olunan 41 nəfər parlament çoxluğunu təşkil edən deputat yoldaşlarım məhz cənab Prezident İlham Əliyevin rəhbəri və lideri olduğu Yeni Azərbaycan Partiyasının namizədi olaraq Ali Məclisə deputat seçilmişik. Naxçıvan Muxtar Respublikası, o cümlədən onun ali qanunverici orqanı olan Ali Məclis Ümummilli Liderimizin siyasi irsinin ən vacib və dəyərli təsisatlarından biridir. Bu mənada, Ali Məclisin siyasi nüfuzu məhz Ulu Öndərin 1991-1993-cü illərdə Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdəki fəaliyyətləri ilə bağlıdır. Əmin edirəm ki, qarşıdakı fəaliyyətimdə bu şərəfli məqamı daim diqqətdə saxlayaraq hərəkət etməyə çalışacağam. Ötən ilin sonunda ölkə Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutu yaradılıb. Bu, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında bir yenilikdir, eyni zamanda siyasi sistemimizin təkmilləşdirilməsinə xidmət edir. Artıq mərkəzi hakimiyyət Naxçıvanda daha əlçatandır. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi mühitin sağlamlaşdırılması, problemlərin müəyyənləşdirilərək sistemləşdirilməsi, onların həlli üçün resursların səfərbər olunması istiqamətində iş aparılır. Ali Məclis də bu istiqamətdə həyata keçirilən tədbirlərə öz töhfəsini verəcək. Qarşıdakı dövrdə Ali Məclisin qanunvericilik fəaliyyətinin gücləndirilməsi, muxtar respublikada yaradılan səlahiyyətli nümayəndəlik institutu, yerli qurumlarla qarşılıqlı fəaliyyətin təmin edilməsi və digər istiqamətlər üzrə birgə fəaliyyət göstərərək parlamentin nüfuzunun özünə qaytarılması istiqamətində çalışacağım üçün məmnunam".

Gündəlikdə duran beşinci məsələ ilə bağlı qeyd olunub ki, sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilərək deputatlıq səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün verilən vergilərdən azad olunmuş pul təminatı ləğv olunduğundan, müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 21 iyul tarixli Qərarı ilə deputatın aylıq əməkhaqqının 25 faizi miqdarında müəyyən edilən pul təminatı da ləğv edilməli və yeni vəzifə maaşı müəyyən edilməlidir.

Sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul olunub.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 16 may 2023-cü il*

## "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 16 may 2023-cü il*

## A.A.İbrahimovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Anar Adil oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 16 may 2023-cü il*

## "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 21-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Deputat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə müəyyən edilmiş məbləğdə aylıq vəzifə maaşı alır".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 16 may 2023-cü il*

## *"Valideyn himayəsindən məhrum uşaqların hüquqlarının qorunması: reallıqlar və perspektivlər"* mövzusunda iclas keçirilib



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların hüquqlarının qorunması: reallıqlar və perspektivlər" mövzusunda iclas keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın üzvləri və rayon (şəhər) icra hakimiyyətləri yanında Qəyyumluq və Himayəçilik, Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyaların rəhbərləri və üzvləri iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova iclası açaraq bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Komitə sədri bildirib ki, muxtar respublikada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum 99 uşaq vardır. Onlardan 15-i ali və orta ixtisas təhsili müəssisələrində təhsil alır. Bu uşaqlar dövlət uşaq müəssisələrində deyil, öz yaxın qohumlarının himayəsində və ya qəyyumluğunda yaşayırlar. Onların hüquqlarının qorunması üçün mütəmadi olaraq yaşadıqları ünvanlarda monitorinqlər aparılır. Komitə sədri müvafiq sahə ilə bağlı mövcud nöqsanlar haqqında da fikrini bildirib. Tədbirdə müvafiq kateqoriyadan olan uşaqlar üçün hərtərəfli imkanlar yaradılması sahəsində təkliflərə dair diskussiya şəklində müzakirələr aparılıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında yaşayan uşaqlar hər il olduğu kimi, 2022-ci ildə də dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə edilmişlər. Onların qanunla müəyyən olunmuş hüquqlarının həyata keçirilməsi və mənafelərinin müdafiəsi il ərzində diqqət mərkəzində saxlanılmış və bir sıra tədbirlər görülmüşdür. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların təhsilinə və reabilitasiyasına daim ciddi önəm verilmiş, onlar məktəbəqədər, ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilmişlər. Hesabat ili ərzində 1805 sağlamlıq imkanları məhdud uşaq olmuşdur ki, bunların da əqli və fiziki potensialları nəzərə alınmaqla məktəbəqədər və ümumtəhsil müəssisələrinə cəlb edilməsi məqsədilə sağlamlıq imkanları məhdud 100 uşağın yaşadıqları evlərdə monitorinq keçirilmişdir.

Hesabat dövrü ərzində 6 uşaq övladlığa, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 32 uşaq isə qəyyumluq və ya himayəyə verilmişdir. Valideyn himayəsindən məhrum olmuş 12 uşağın, tək valideyn himayəsində olan 1 uşağın yaşadığı ünvanlarda monitorinqlər keçirilmiş, lazımi köməklik göstərilmişdir. Ümumtəhsil məktəbini bitirən hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşaq ali məktəbə, 2 uşaq isə orta ixtisas təhsili müəssisəsinə qəbul olmuşdur.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmiş, iclasın sonunda komissiyanın 2023-cü ilə dair iş planı müzakirə olunaraq, təsdiq edilmiş və iclasın qərarı qəbul olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## *"Vətəndaşların müraciətlərinə baxılmasının hüquqi əsasları"* mövzusunda tədbir olub

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.*



Tədbirdə Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Asiman Abbasov giriş sözü ilə çıxış edərək məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyini diqqətə çatdırıblar.

Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşı Sadiq Babayev mövzu ətrafında çıxış edərək vurğulayıb ki, vətəndaşların müraciətlərinə baxılması Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində dövlət orqanlarının qarşısında qoyulmuş vəzifələrdən biridir.

Qeyd edilib ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, muxtar respublikamızda qeydiyyatda olan və ya fəaliyyət göstərən hüquqi şəxslərin Naxçıvan Muxtar Respublikasında hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb və suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# Azərbaycan Respublikasının Hesablama Palatasının məlumatları




Azərbaycan Respublikasının Hesablama Palatasının 2023-cü il üzrə İş Planına uyğun olaraq 2023-cü il 15 fevral tarixdən 18 mart tarixədək Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılan vəsaitlərin və dövlət əmlakının istifadəsinin və idarə olunmasının auditi həyata keçirilmişdir. Audit nazirlik üzrə 2021-2022-ci illərdə, ümumilikdə, 27.032.883 manat vəsaiti əhatə etmişdir ki, bundan saxlanma xərcləri üzrə 1.620.090 manat, subsidiyaların ödənişi üzrə 25.412.793 manat təşkil etmişdir. Audit sübutlarına uyğun olaraq aşağıdakı nöqsanlar aşkar olunmuşdur:

Audit zamanı 2021-2022-ci illərdə subsidiya verilməsi məqsədilə ayrılmış vəsaitin 57,2 fazinin əsassız xərclənməsi müəyyən olunmuşdur. Bütün bunlar Naxçıvan Muxtar Respublikasında subsidiya sisteminin düzgün qurulmaması, uzun müddət nəzarət mexanizminin tətbiq edilməməsi səbəbindən həmin fəaliyyət üzrə yüksək risklərin yaranmasına şərait yaratmışdır.

Aqrar sahədə subsidiya üzrə Azərbaycan Respublikası Prezidentinin fərmanları düzgün tətbiq edilməmişdir. Belə ki:

“Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanını və Fərmanla təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması” Qaydasını və digər qanunvericilik aktlarının tələblərinə əməl edilməyərək “Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin” Naxçıvan Muxtar Respublikasında tətbiqi həyata keçirilməmiş, nazirlikdə müvafiq işçi qrupu yaradılmamış, kütləvi informasiya vasitələrində məlumat dərc olunmamış, kənd təsərrüfatı istehsalçıları üzrə monitorinq və qiymətləndirmə aparılmamış;

“Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması” Qaydasının 3.2-ci bəndinin ləğv edilməsinə baxmayaraq, həmin bənd Naxçıvan Muxtar Respublikasında tətbiq edilmiş, ayrılan subsidiya daxilində alınan gübrələrin və biohumusun 70 faizi əkin subsidiyası hesabına, 30 faizi isə torpaq mülkiyyətçisi tərəfindən ödənilməsi mexanizmi köhnə qaydada davam etdirilmişdir.

Aparılmış yaz əkinlərinə görə, kənd təsərrüfatı istehsalçılarına subsidiya verilmədiyi halda vəsait avans kimi köçürülmüş və ilin sonunda qalan vəsait büdcəyə qaytarılmamışdır. Belə ki:

2021-ci ildə Naxçıvan Muxtar Respublikasında 17294,63 hektar sahədə aparılmış yaz əkinləri üçün hesablanmış əkin subsidiyasından gübrənin alınması üçün nəzərdə tutulmuş məbləğin 70 faizi gübrə istehsalçılarına verilməmişdir.

2021-ci ildə subsidiya üzrə vəsaitdən 2041200,0 manat vəsait Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialında açdığı hesablaşma hesabında saxlanmış, növbəti ilin subsidiyalarının verilməsində istifadə edilmişdir.

Rayon komissiyaları və yerlərdə aparılan araşdırma zamanı bir sıra nöqsanların aşkar olunduğu müəyyən edilmişdir. Belə ki, subsidiyanın hesablanması və ödənilməməsi:

icarə müqavilələrinin bağlanmaması;

müqavilələrdə tərəflərin imzalarının olmaması;

icarə müqavilələrinin təsdiq edilməməsi və ya sonradan təsdiq edilməsi;

əkin subsidiyasının verilməsinə əsas verən torpaq sahələrinin təsdiqedici sənədlərdə göstərilən hektarlarla uyğun olmaması;

subsidiyanın verilməsi üçün digər təsdiqedici sənədlərin olmaması;

adlarına subsidiya rəsmiləşdirilmiş vətəndaşlara subsidiyanın ödənilmədiyi və bu barədə vətəndaşların xəbərsiz olması halları müəyyən edilmişdir.

Meyvə bağlarına subsidiyaların hesablanması zamanı ən yüksək əmsal tətbiq olunmaqla bütün bağlar yeni və intensiv meyvə bağları kimi rəsmiləşdirilmiş, rayon komissiyaları tərəfindən təsdiq edilən adlı siyahılarda meyvə bağları növlərinə görə fərqləndirilməmiş, əkilməyən və ya mövcud olmayan əkin sahələrinə, meyvə bağlarına, üzüm bağlarına, tinglərə, toxumlara və dövlət dəstəyinin digər növlərinə (arı ailələri, süni mayalanma ilə doğulan buzovlar və sair) görə subsidiyanın verilməsi rəsmiləşdirilmişdir ki, bu da digər sahələrdə olduğu kimi, dövlət vəsaitlərinin qeyri-qanuni istifadəsinə şərait yaratmışdır.

Texnikanın güzəştli şərtlərlə satışı zamanı nöqsanlara yol verilmişdir. Belə ki:

“Aqrolizinq” ASC tərəfindən “Naxçıvan Aqrolizinq” ASC-yə əvəzsiz verilən traktor və kotanların satışı zamanı büdcə vəsaiti hesabına “Naxçıvan Aqrolizinq” ASC-yə əsassız olaraq 40 faiz güzəşt üzrə 58800,0 manat subsidiya köçürülmüş, texnikaların güzəştli şərtlərlə satışı zamanı alıcıların maliyyə vəziyyəti və digər istiqamətlərdə risklər araşdırılmamışdır.

Un subsidiyasının verilməsi üzrə rəqabət mühiti təmin edilməmişdir. Belə ki:

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyinin xətti ilə satılan unun hər tonuna görə un istehsalçılarına köçürülmüş 1309465,0 manat məbləğində subsidiya vəsaitlərini yalnız 1 istehsalçı olmaqla “Gəmiqaya Holdinq” istifadə etmişdir.

Vəsaitlərin istifadəsi zamanı mühasibat uçotunun bəzi tələblərinə əməl edilməmişdir. Belə ki:

Subsidiya üzrə 2021-ci ildə icra edilmiş 18474308,34 manat, 2022-ci ildə icra edilmiş 6938485,19 manat vəsait Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin maliyyə hesabatlarında əksini tapmamış;

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin “Araz” Elm-İstehsalat Birliyinin Yardımçı Təcrübə Təsərrüfatı tərəfindən “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun tələbləri pozularaq pul vəsaitinin dövriyyəsi nağd qaydada həyata keçirilmiş, mühasibat uçotu aparılmamış, hesabat tərtib edilməmişdir.

* * *

Azərbaycan Respublikasının Hesablama Palatasının 2023-cü il üzrə İş Planına uyğun olaraq 2023-cü il 15 fevral tarixdən 18 mart tarixədək Naxçıvan Beynəlxalq Hava Limanı və onun tabeliyində olan “Aeroport Taksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin dövlət əmlakının istifadəsi və idarə edilməsinə dair uyğunluq auditi həyata keçirilmişdir. Audit 2021 və 2022-ci illəri əhatə etmişdir. Əhatə olunan dövrdə hava limanının 28.471.323 manat (amortizasiya xərcləri daxil olmaqla) xərci, 20.631.647 manat gəliri olmuşdur. Audit Sübutlarına uyğun olaraq aşağıdakı nöqsanlar aşkar edilmişdir:

Naxçıvan Beynəlxalq Hava Limanı təsərrüfat hesablı müəssisəsi ilə özəl şirkətlər arasında hava gəmilərinin enmə-qalxmasının təminatına dair müqavilələr bağlanmışdır. Müqavilələrin şərtlərinə əməl edilməyərək yerüstü, texniki və kommersiya xidmətləri, aeroport yığımı, təhlükəsizlik yığımları, təyyarənin artıq dayanması, xüsusi təhlükəsizliyi və qorunması və sair xidmətlərin faktiki olaraq göstərilməsinə baxmayaraq, ümumilikdə, xidmətlərin dəyəri hesablanmamış və özəl şirkətlərdən alınması təmin edilməmişdir;

Hava gəmilərinə texniki xidmət, gələn sərnişinlərin təhlükəsizlik yığımı və hava gəmilərinin təhlükəsizlik xidmətinin haqları özəl aviaşirkət ilə bağlanmış müqavilənin şərtlərinə daxil edilməmiş, nəticədə, bu xidmətlərin faktiki olaraq göstərilməsinə baxmayaraq, hava limanı tərəfindən, ümumilikdə, bu xidmətlərin dəyərini təşkil edən 288.529 manat məbləğində xidmət haqqının özəl aviaşirkətdən alınması təmin edilməmişdir;

Naxçıvan Beynəlxalq Hava Limanı ilə bir sıra hava yolları şirkətləri arasında bağlanmış müqavilələr üzrə göstərilən xidmətlərin tarifləri (enmə-qalxma, kommersiya xidməti, yerüstü xidmət və aeroport yığımı) arasında fərqlər yaranmış və bunun nəticəsində hava limanının gəlirlərinin azalmasına (bəzi hallarda artmasına) səbəb olmuşdur;

Naxçıvan Beynəlxalq Hava Limanının Aerovağzal binasında və Aviakassa binasında fiziki və hüquqi şəxslərə icarəyə verilmiş qeyri-yaşayış sahələri üzrə faktiki icarə sahəsinin az göstərilməsi nəticəsində icarədarlardan vəsait az hesablanaraq alınmamışdır;

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının tələbinə əməl edilməyərək dövlət əmlakının icarəyə verilməsində dövr ərzində 59.615 manat vəsaitin 50 faizi, yəni 29.807 manat vəsait dövlət büdcəsinə ödənilməmişdir, eyni ilə “Aeroport Taksi” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə də Fərmanın tələblərinə əməl edilməyərək dövlət əmlakının icarəyə verilməsindən dövr ərzində 36.400 manat icarə haqqının 50 faizi, yəni 18.200 manat məbləğində vəsait dövlət büdcəsinə ödənilməmişdir;

Aerovağzalın dayanacaq (parklanma) xidmətindən əldə olunan vəsaitdən, abunə kartlarına görə abunəçilərdən yığılan vəsaitdən, Naxçıvan Beynəlxalq Hava Limanında ödənişli baqaj yükü üzrə xidmətlərdən daxil olan vəsaitdən, “Biznes Sinif Şəxslər” (CİP) xidmətindən istifadə edən sərnişinlərə göstərilən müvafiq xidmətlərdən nağd şəkildə daxil olan vəsaitlərdən, sərnişinlərin baqaj yüklərinin sarğı materialı ilə bağlanmasından daxil olan vəsaitlərdən və Bakı şəhərinə yük göndərənlərdən (1 kiloqram yük üçün mövcud tarifdən 0,15 manat və ya 0,20 manat) baha qiymət tətbiq edilməklə tarifdən artıq nağd pulun alınmasından gələn vəsaitlərdən cuzi məbləğ hava limanının bankdakı hesabına ödənilmiş, qalan vəsait yayındırılaraq hava limanının bankdakı hesablaşma hesabına ödənilməmişdir. Nəticədə, hava limanının gəlirlərinin azalmasına səbəb olmuşdur.

Audit əhatə etdiyi dövrdə satınalmaların keçirilməsində malsatan və podratçıların iştirakı zamanı onların azad rəqabət hüququnun qorunması, dövlət vəsaitlərindən qənaətlə istifadə edilməsi və dövlət vəsaitlərinin xərclənməsində şəffaflıq prinsiplərinə hava limanı tərəfindən əməl olunmamışdır. Hava limanın 2021-ci ildə 92 hüquqi və fiziki şəxslərlə və 2022-ci ildə 91 hüquqi və fiziki şəxslərlə dövlət satınalma metodu tətbiq edilmədən birbaşa müqavilə bağlanılaraq həyata keçirilmişdir ki, bu da hava limanının xərclərinin 36 faizini təşkil etmişdir.

Hava limanı tərəfindən 2021-2022-ci illərdə alınmış idxal malları üzrə büdcəyə ödənilməli olan 116 300 manat məbləğində əlavə dəyər vergisi dövlət büdcəsinə deyil, Naxçıvan Muxtar Respublikasının İnkişafı və Müdafiəsi Fonduna köçürülmüşdür;

Xarici ölkələrdə CL-605 tipli, bort nömrəsi M-TRBS olan təyyarəyə texniki qulluq mövzusunda təşkil olunan kurslarda və praktiki-təcrübələrdə iştirak etmək üçün xarici ölkələrə ezam edilən hava limanı əməkdaşına artıq ezamiyyə xərcləri çəkilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının təmir-tikinti, quraşdırma işlərinə özəl şirkətlərlə bağlanmış müqavilələr üzrə görülən işlər cari bazar qiymətlərinə uyğun müqavilə qiymətləri ilə həyata keçirildiyi halda yerinə yetirilmiş işlərin həcminə 12 faiz üstəlik xərc, 8 faiz plan yığımının və nəzərə alına bilməyən xərclərin işlərin həcminə daxil edilməsi nəticəsində artıq dövlət vəsaiti podratçılara ödənilmişdir.

Həmçinin Naxçıvan Beynəlxalq Hava Limanı tərəfindən mal-materialların, avadanlıqların alınması və quraşdırılmasına görə şirkətlərlə müqavilələr bağlanmışdır. Lakin müqavilələrdə alınan mallar və görülən işlərin cari bazar qiymətlərindən baha qiymətə alınması və bəzən isə müqavilə qiymətlərinə tətbiq olunan əlavələrin edilməsi nəticəsində hava limanının xərclərinin artmasına səbəb olmuşdur.

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməyərək maliyyə-təsərrüfat əməliyyatlarının uçotu 1995-ci ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin təsdiq etdiyi Hesablar Planına və uçot qaydalarına uyğun aparılmış, mühasibat uçotunun aparılması, mühasibat uçotu sənədlərinin və maliyyə hesabatlarının tərtib edilməsi, habelə ayrı-ayrı maliyyə-təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi hazırkı hüquqi aktlara uyğun aparılmamışdır.

Mühasibat uçotunun aparılması ilə bağlı hüquqi aktların tələblərinə tam əməl edilməməsi, ayrı-ayrı kreditorlar (işçilərlə, büdcə ilə və sığorta orqanları ilə hesablaşmalar) üzrə araşdırma aparılarkən 2021-ci ildə 780452,76 manat kreditor borcu və eyni zamanda hüquqi və fiziki şəxslərdən mal-materialların alınması, xidmətlərin göstərilməsi, icarə haqlarının ödənilməsi üzrə 2021-ci ildə 517487,0 manat, 2022-ci ildə 689891 manat debitor borcları uçot registrlərində və maliyyə hesabatlarında əks etdirilməmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanı tərəfindən daxili nəzarətin təşkili vəziyyətinin qənaətbəxş olmadığı müəyyən olunmuşdur. Hava limanının Əsasnaməsinin müvafiq bəndlərinin tələblərinə əməl edilməyərək struktur bölmələrində mövcud olan ştat vahidlərinin sayı artırılmış, hava limanının fəaliyyətinin SWOT təhlili aparılmayaraq onun zəif və güclü tərəfləri, təhlükələri və imkanları açıqlanmamış, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə tədbirlərin görülməsi təmin olunmayaraq inkişafına dair təkliflər verilməmişdir;

## “Naxçıvan” Universitetində Məzunlar Assosiasiyası yaradılıb



“Naxçıvan” Universitetində ötən illərin məzunları ilə görüş keçirilib. Görüşdə universitetin rektoru, dosent Anar Kazımov qonaqları salamlayaraq bu ali təhsil ocağının adını hər zaman uca tutduqlarına görə məzunlara minnətdarlığını bildirib.

Anar Kazımov son vaxtlar universitetdə görülən işlərdən, yeni layihələrdən söz açaraq qeyd edib ki, elmi sahədə əldə olunan yeniliklər, təhsilin keyfiyyətinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələr, dövlət və özəl müəssisələr ilə əməkdaşlıq bundan sonra daha geniş platformada davam etdiriləcək.

Görüşdə “Naxçıvan” Universitetində Məzunlar Assosiasiyasının yaradılması da qərarlaşdırılıb. Assosiasiyanın sədri isə 2013-cü ilin məzunu Nargilə Nəsirova seçilib. Qeyd edilib ki, iyun ayının əvvəllərində ilk iclası keçiriləcək assosiasiyanın yeni loqosu, fəaliyyət planı və həmin iclasda müəyyənləşdiriləcək.

Məlumat üçün bildirək ki, assosiasiyanın yaradılmasında əsas məqsəd universitet və məzunlar arasında körpü yaradaraq əməkdaşlıq qurmaqdır. Bu həm məzunlar, həm də tələbələr üçün faydalı olacaq.

Görüşdə çıxış edən məzunlar öz tələbəlik illərini, müəllimlərini yad edib, xoş xatirələrini bölüşüblər.

Keçmiş məzunlar ali məktəbdə aparılan islahatları, buradakı uğurları hər zaman izlədiklərini qeyd edib, Məzunlar Assosiasiyası yaradıldığı üçün minnətdarlıqlarını bildiriblər.

*“Naxçıvan” Universitetinin mətbuat xidməti*

## Yeni monoqrafiyaların təqdimatı olub

*AMEA Naxçıvan Bölməsində “Şərur rayonunun tarixi” və “Dalmatəpə mədəniyyətinin mənşəyi” monoqrafiyalarının təqdimatı keçirilib.*

Təqdimat mərasimini giriş sözü ilə açan bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli institut əməkdaşları tərəfindən muxtar respublikanın rayonlarının tarixinin yazıldığını xatırladıb. Alim bildirib ki, “Şərur rayonunun tarixi” monoqrafiyası Şərur Rayon İcra Hakimiyyətinin dəstəyi ilə çap olunub. Monoqrafiyanın müəllifləri Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarından AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovdur.

Təqdimatı keçirilən növbəti əsər barədə danışan professor bildirib ki, monoqrafiya ilbəil yeni tapıntılar işığında zənginləşən



Naxçıvan arxeologiyasına növbəti töhfədir. Monoqrafiya Dalmatəpə mədəniyyəti ilə bağlı elmi təhlillərin yer aldığı dəyərli tədqiqat əsəridir.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova, institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev çıxış edərək “Şərur rayonunun tarixi” monoqrafiyasında bu qədim yurd yerinin mədəni inkişafı ilə bağlı əksini tapan fakt və təhlillərə diqqət çəkiblər.

Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Süreyya Bəşirova əhatəli tədqiqatların nəticəsi olan yeni elmi nəşrin tarixi keçmişimizin öyrənilməsinə mühüm töhfə olduğunu söyləyib.

İnstitutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva təqdimatı keçirilən növbəti monoqrafiya ilə bağlı “Dalmatəpə mədəniyyətinin mənşəyi haqqında söz” adlı məruzə edib. Məruzəçi bildirib ki, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və gənc tədqiqatçı Elmar Baxşəliyev tərəfindən hazırlanmış yeni nəşr aktuallıq kəsb edən problemə aydınlıq gətirmək baxımından əhəmiyyətlidir. 134 səhifədən ibarət olan monoqrafiya 5 başlıca struktur hissədən ibarətdir. 47 tablonun nəşrə əlavə edilməsi əsərin dəyərini daha da artırır.

Müəlliflər adından çıxış edən AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bildirib ki, Şərur rayonu ilə bağlı araşdırmalar zamanı sübuta yetirilmişdir ki, bölgə sakinləri həm də Göyçə gölü hövzəsinin əsas sakinlərindən olmuşlar. Məhz bu fakt uydurma erməni iddialarına qarşı elmi həqiqətə əsaslanan cavabdır. Alim daha sonra Dalmatəpə adının mənşəyi, bu mədəniyyətin fərqləndirici cəhətləri barədə danışıb.

Sonda çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Şərur rayonunun tarixi” monoqrafiyasının nəşrinə göstərdiyi dəstəyə görə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərova təşəkkür edib, müəllifləri təbrik edərək səmərəli elmi fəaliyyətlərində müvəffəqiyyət arzulayıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Orta əsr Naxçıvan milli memarlıq mədəniyyəti özünəməxsus zənginliyi ilə seçilir

*Qədim Naxçıvan tarixən Böyük İpək Yolu üzərində yerləşdiyindən, öz maddi və mənəvi sərvətləri ilə hər zaman diqqət mərkəzində dayanmışdır. Yaxın və Orta Şərqdə mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi kimi qoca Şərqin qapısı adlandırılır. Tarixi uzun minilliklərə dayanır. Məlumdur ki, qüdrətli və zəngin bir keçmişi olan hər bir xalqın özünün milli dəyərləri var. Milli dəyərlər xalqları, millətləri, toplumları digərlərindən fərqləndirən ən üstün keyfiyyətlərdir. Milli kökə və milli təmələ sahib olan Azərbaycan xalqının da milli dəyərləri kifayət qədərdir. Dilindən, dinindən, tarixindən, folklorundan tutmuş, özünün dünya şöhrətli şəxsiyyətlərinə qədər. Bu mənada, xalqımızın milli dəyərləri haqqında uzun-uzadı danışmaq olar. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı başarı ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur.*

Erkən orta əsrlər dövründə Naxçıvan Azərbaycanın böyük şəhərlərindən birinə çevrilmiş, XII əsrin ikinci yarısı – XIII əsrin əvvəllərində o vaxta qədər görünməmiş bir səviyyəyə çatmışdır.

Azərbaycan ərazisində yaşayan qədim tayfaların mifoloji görüşlərinin formalaşmasına qədim Şərq mədəniyyəti, xüsusilə Şumer mədəniyyətinin müəyyən təsiri olmuşdur. Bu təsir digər arxeoloji abidələrdə olduğu kimi, Gəmiqaya təsvirlərində də özünü göstərir. Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsi olan Gəmiqaya təsvirləri xalqımızın sənət əsərlərində, folklorunda və etnoqrafik materiallarda yaşamaqda davam edir.

Naxçıvan diyarı qədim zamanlardan bəri nadir memarlıq nümunələri ilə Yaxın Şərqdə tanınırdı. Eradan əvvəl III minilliyin sonu-II minilliyin əvvəllərinə aid olan yaşayış məskənlərində Naxçıvanın qədim memarlığına aid çiy kərpic və möhrədən inşa edilmiş bina qalıqları, Naxçıvan Muxtar Respublikası ərazisində dürbucaq və yarımdairəvi bürcləri olan möhtəşəm qala divarları ilə əhatə olunan şəhər yerlərinin qalıqları günümüzə qədər gəlib çatmışdır.

Naxçıvanın qədim şəhər mərkəzi olan I Kültəpə, Ovçular təpəsi və digər aşkar edilmiş tikinti qalıqları, çiy kərpicdən tikilmiş kürələr və çoxlu miqdarda təsərrüfat və məişət avadanlıqları qədim sənətin burada yüksək səviyyəyə çatdığını sübut edir. Bu dövrdə Naxçıvanın sənət ustaları müxtəlif təyinatlı təsərrüfat və məişət əşyaları istehsal etməklə yanaşı, onların boyanmasında da mühüm nailiyyətlər qazanmışdır. Buna görə də qədim Naxçıvanda kaşıçılıq sənəti inkişaf etmişdir.

Naxçıvan şəhəri eradan əvvəl III minillikdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən olması ilə bərabər Dəmir dövrü yaşayış yerlərinə məxsus möhtəşəm sənət nümunələri bu ərazidə məskunlaşan tayfaların böyük sənətkarlığa sahib olduğunu təsdiq edir.

Naxçıvanın ayrı-ayrı tarixi dövrlərə aid yaşayış məskənləri siklop tikililəri, maddi mədəniyyət və memarlıq abidələri, qalaları, istehkamları, inşaat materialları, tikinti texnikası öz zənginliyi ilə maraq doğurur.

XII əsrdə qüdrətli Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan Yaxın və Orta Şərqin yüksək mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri



olmaqla memarlıq sənəti sahəsində də yüksək səviyyəyə çatmışdır. Çoxsaylı dini memarlıq abidələri və mülki binalar, zəngin ornament və boyalarla bəzədilmiş əzəmətli məscidlər, türbələr, saraylar, karvansaraylar, körpülər, qala və bürclər, mədrəsələr, bəzəkli yaşayış evləri, mükəmməl memarlıq quruluşu olan hamamları özündə ehtiva etmişdir.

Orta əsr müsəlman Şərqinin böyük memarı, Naxçıvan memarlıq məktəbinin nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı memarlıq abidələri həmin dövr müsəlman memarlığının inkişafının zirvəsi səviyyəsinə yüksəlmiş, özündən sonrakı memarlığın formalaşmasına həlledici təsir göstərmişdir. Quruluş və formaları harmoniyanın əbədi qanunlarına əsaslanan Əcəmi memarlıq nümunələri öz ilahi gözəlliyinin cazibədar güvvəsini bu gün də nümayiş etdirir.

Naxçıvan Dövlət Universitetinin dosenti Qadir Əliyevə görə klassik dönəm dediyimiz bu dövrdə İslam aləmi çox canlı elm və düşüncə həyatının parlaq olduğu bir dünya idi. İlahi sənəti, bu sənətdəki bəlli gözəllikləri anlamaq, varlığımızın əsasını təşkil edən maddi və mənəvi dəyərlərdəki harmonikliyin, gözəlliyin kamalla, kamalın da gözəlliklə qucaqlaşdığı bir sehr dünyası idi. Bu dövrdə mənbəyini iki ana qaynaqdan – maddi qaynaq olan elmdən və mənəvi qaynaq olmaqla İslamın fəzilət və əxlaq ölçülərindən alan İslam mədəniyyəti, əski mədəniyyətlərin yüksək yönlərinin inkişafına səbəb olan ən böyük elm-kəşf üfüqünü açmışdır. Əcəmi memarlığının təşəkkülü dövründə bu inciləri bəxş edənlərin içərisində orta əsr Müsəlman Şərqi bədii-estetik, elmi, fəlsəfi fikirlərin dahi nümayəndələri Xaqani Şirvani, Əbülhəsən Bəhmənyar, Şihabəddin Marağayi, Nizami Gəncəvi və digərləri müstəsna yer tutdular. Canlılığını və parlaqlığını beş əsr qoruyan bu dünya müasir dövrə əvəzsiz miraslar qoyub getmişdir.



AMEA-nın müxbir üzvü, memarlıq üzrə elmlər doktoru Cəfər Qiyasi orta əsr Azərbaycan memarlıq formalarından bəhs edərək göstərir ki, orta əsr Azərbaycan memarlığı bütün müsəlman memarlığı üçün ümumi olan kanonlara, vahid elmi nəzəri sistemə dayanırdı. Bu birlik tikinti sənətinin müxtəlif sahələrində özümlü şəkildə üzə çıxdığı üçün memarlıq bəzəyində səthlərin naxışlarla bəzənməsi şəklində özünü göstərir.

Qədim zamanlardan başlayaraq günümüzə qədər Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan yerli əhali çox sənətsevər olmuş, baxımlı obyektlərə güclü meyil göstərmiş, gül-çiçəyə, bağ-bağata, naxışlara, gözəl formalara, heyrət doğuran bəzəklərə biganə qalmamışlar. Burada yaşayan insanlar öz davranışında, incəsənətində müəyyən məzmunu bildirmək üçün müəyyən formalar, işarələr, əlamətlər, nişanlar seçir, onları gözəllik üçün xarakter sayırdı.

Orta əsrlərdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da qədim ənənə kimi naxışların məişət əşyalarında tətbiqi, xalq sənətimizdə işlənməsi əvvəlki qaydada davam edirdi. Ornamental sənətimizi indiyə qədər yaşadan memarlıq abidələrimiz məscidlər, minarələr, günbəzlər, türbələr, karvansaraylar və sairdir. Həmin abidələr funksiyalarına, ənənələrinə sadiq qalmaqla, ətraf mühitə uyğun gəlməklə gözəllik həllini maksimal sadəliklə tapmışdır. Bu o dövrün poeziyasının başqa bir çıxış forması idi.

Beləliklə, eyni inkişaf xətti naxışlarda da özünü göstərir. Qədim və orta əsr Naxçıvan dekorativ-tətbiqi sənətinin təşəkkülü və inkişafı, o dövrdə yaradılan belə sənət örnəklərinin bəzəklərində indi də qalmaqda davam edir. Orta əsr Naxçıvan memarlıq nümunələri üzərində, dekorativ-tətbiqi sənət nümunələrində naxışlara daxil edilmiş yazılarda Quran ayələri, poetik deyimlər ornamenti tam mənasızlaşmağa qoymurdu.

Bu faktın orta əsr müsəlman Şərq memarlığında aparıcı rol oynamasından bəhs edən amerikalı görkəmli İslam mədəniyyəti tarixçisi Will Durant göstərir ki, müsəlman sənətkarlar mozaika, oyma çiçək və yazılar, rəngli mərmər, tuğlalardan istifadə edərək mehrabı gözəlləşdirmək üçün bütün bacarıqlarını ortaya qoyardılar. Bu sənətin ehtişamı çox ehtimal ki, heyvan və insan şəkillərinin təsvirinin yasağına borcluyuq. İslam sənəti sənətdəki bu boşluğu doldurmaq üçün son dərəcə müxtəlif fiqurlar kompozisiyası icad etdi. Öncə həndəsi şəkillərdən faydalanma yoluna getdi: Gizgi, bucaq, kvadrat, kub, konus, spiral, ellips, kürə, çoxbucaqlı, üçbucaqlılardan istifadə etdi. Bunlar saysız kompozisiyalar halında birbiri ilə biçimləndirilərək bir çox şəkillər meydana gətirdi. Daha sonra çiçəklərə döndü, müxtəlif vasitələrdən istifadə edərək çiçək biçimlərindən faydalandılar. X yüzildə bütün bunları arabesk (bitki naxışlarından ibarət şəbəkə) formalar içində etdilər. Və ən yüksək bir süsləmə ünsürü olan yazıdan, xüsusilə kufi xəttindən istifadə etdilər, hərfləri müxtəlif yollarla süsləyərək əlifbanı bir sənət vasitəsi halına gətirdilər.

Xətt sənəti də süsləmə məqsədini daşıyırdı. Yazı ilə rəsm arasında mehriban bir birlik olması qədim Çin mənbələrindən məlumdur. Kufədən gələn kufi yazını xəttatlar bir ustalıqla işləyib çiçəklər və başqa naxışlarla kompozisiya halına gətirirdilər. Beləliklə, kufi yazı, o dövr memarlığının başlıca dekorativ ünsürlərindən biri halına gəldi. Sonrakı dövrdə memarlıq və tarixi abidələr dekorunda xətli yazı tətbiq edilməyə başlandı. Dünyanın heç bir tərəfində bundan gözəl yazı və bu yazılardan düzələn daha gözəl bir sənət ola bilməzdi. Beləliklə, ərəb qrafikasından düzələn yazı motivləri dövrünün bütün memarlıq və incəsənət əsərlərində öz dekorativ həllini tapmışdır.

Orta əsrlər Azərbaycan, eləcə də Naxçıvan estetik mədəniyyətində memarlıq, dekorativ-tətbiqi sənət, miniatür sənəti ictimai-fəlsəfi məna daşıyırdı. Miniatürlərdə rəng işığı udur, şəffaflaşır, kölgəsiz parlaq olur. Miniatürlərdə işıq sanki bir rənglə həll olunur, fəza məkan dəyərlərinin ifadəsi rəngin öhdəsinə düşür, hava perspektivini aradan qaldırır. Bu sənətdə də təsvirləri tamamlayan naxışlar bolluqla tətbiq olunurdu. Miniatür sənətinin təşəkkülü dövründə bu inciləri bəxş edənlərin içərisində miniatürçü Soltan Məhəmməd, Kəmaləddin Behzad, Əbdülmömin Məhəmməd əl-Xoyi, Mirzə Əli, Müzəffər Əli, Sadiq bəy Əfşar və digərləri müstəsna yer tuturdular.

Yaxın və Orta Şərq müsəlman ölkələrində, həmçinin Naxçıvanda ornamental sənətin geniş yayılması və ornamentdən yazıya, yazıdan ornamentə keçməklə, ornamenti məna anladan işarəyə çevirmək cəhdləri naxışlarda fəlsəfi məna yaradırdı. Tədqiqatçıların göstərdiyi kimi, bu dövrdə yaradılan həndəsi naxışları İslam ruhu üçün inteqral forma hesab etmək olar. İctimai məkanda isə milli-mənəvi dəyərlərin bir qolu olan mərasimlər ritmik olaraq təkrarlanır ki, bu da naxışlarda müəyyən qəliblər dəyişməz qalır. Beləliklə, bütün müsəlman ölkələrində, o cümlədən Naxçıvanda ornamental sənət ciddi ictimai-fəlsəfi köklərə bağlıdır. Tədqiqatçılar həndəsi formalara mütləq varlığın simvolu kimi baxırlar. Naxçıvan milli memarlıq mədəniyyətinin tərkib hissəsi olan ornamentlərin dini-fəlsəfi anlamların simvolları kimi açıqlanmasının elmdə tez-tez təkrarlanması memarlıq nəzəriyyəmizin fundamental məsələsidir.

**Siddiqə HACIYEVA**
***Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müdiri, Prezident mükafatçısı***

### İtmişdir

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Axundov Sabir Bilal oğluna məxsus olan JN-818[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Validə Hüseynova küçəsi, döngə 2, ev 2-də yaşamış Seyidov Fəxrəddin Mirhəşim oğlunun adına olan texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 336